## Milli-mənəvi dəyərlərimiz

# Təkamül həmişə vardır

İnsan ta yaranışdan etdiyi hər bir hərəkəti özünəməxsus bir nizamla etmiş, insani davranışları ilə fərqlənmişdir. Bu isə onun tanrı tərəfindən yalnız canlı deyil, şüurlu bir məxluq kimi ona həyat - yaşam verməsi ilə əlaqəlidir. Bəlkə də bu həyata uyğunlaşana kimi səhvlərlə qarşılaşmış və sonra da səhvlərin təkrar olunmaması düşüncəsi ilə zaman-zaman daha doğrusunu seçmişdir. Bu da "təkamül prosesinin" tarazlaşması və inkişafı ilə nəticələnmişdir.

Təkamül prosesi canlı populyasiyalarının genetik tərkibinin nəsildən-nəslə zamanla dəyişməsi, təbii seçmə, mutasiya və gen axını vasitəsilə mühitə uyğunlaşmasıdır.

Təkamül həmişə olmuşdur və həmçinin yenə də vardır. Təkamül "bir canlı bir anda başqa bir canlıya çevrilir" demək deyil. Bu nəsildən-nəslə ötürülən kiçik genetik dəyişikliklərin uzun müddət ərzində toplanması ilə baş verir. Bu gün də insan populyasiyaları müxtəlif mühitlərə uyğunlaşmağa davam edir - yəni biz hələ də təkamül edirik.

Əgər bu günkü davranışlarımızın səbəbini bilmək istəyiriksə, təkamülə baxmalıyıq.

Günlər aylara, aylar illərə, illər əsrlərə çevrilir. Əsrlər isə minilliklərə. Bu çevirilişlər insan həyatında mühüm dəyişikliklər edir. Bu dəyişikliklər zamanı insanların həyata baxışı yenilənir, düşüncə tərzi, yaşayış tərzi də hər dövrün özünəməxsus bir forması ilə təkmilləşir. XX əsrlə XXI əsrin həyat tərzini müqayisə etsək bu dəyişikliklərin nə qədər fərqli olduğunu görərik. Məlum olduğu kimi, XXI əsr informasiya və texnologiya əsri sayılır. Texnologiya əsri insanların dünyagörüşündə, həyata baxışında müstəsna dəyişikliklərə səbəb olmuşdur. Həmçinin hər bir dəyişiklik insan həyatını zamanın tələbinə uyğun şəkildə inkişaf etdirir, düşüncə tərzi belə müasirləşir. Ancaq bütün bu dəyişikliklərə rəğmən insan xarakterində dəyişməyən bir hiss var. Bu hiss insanın genetik bağlarına daha çox bağlıdır. Bu mənəviyyatdır.

**Vicdani paklıq mənəviyyatın özülüdür**

İnsanın vicdanı onun demək olar ki, ağıl və zəkasının birliyidir. Vicdanının diktəsi ilə hərəkət edən insan mənəviyyatını daima zənginləşdirir. Mənəviyyatı zəngin olan insanlarda vətənpərvərlik daha güclü olur. Vətənpərvərliyi güclü insanlar isə yaşadığı ömür boyu aid olduğu məkanı - torpağını sevər və bu məkanda birgə yaşadığı insanlara həmişə hörmət və ehtiram göstərər. Bu insanlar isə xalqdır. Xalqa bağlılıq mənəvi zənginlikdir.

Yaşadığı məkan, aid olduğu torpaq Vətəndir. Vətənə, xalqına bağlılıq hər bir xalqa, millətə olan sevgidir. Elə insanın insan kimi yaşamasını vacib edən də xalqına, vətəninə olan sevgisidir. Bu isə insanın həm də millətinə, dininə, adət-ənənələrinə olan hörməti və istəyidir.

**Ən ümdə meyar**

İnsanın millətinə, xalqına olan sevgisinin ən başlıcası onun dilinə olan hörmətidir. Hər bir xalqın öz dini, öz dili var. Dilinə, dininə hörmət xalqın sevgisinin inikasıdır. Ona görə də milli-mənəvi zənginlikdən söz açarkən ilk növbədə Azərbaycan vətəndaşı kimi, xalqını sevən insan kimi dilimiz və onun qorunub saxlanılması haqqında yazmaq, oxucularla öz düşüncələrimi bölüşmək istdim.

Öz dilini təhrif etməklə danışmaq, bu mənim "tərzimdir" deyərək öz dilimizin bir çox sözlərini müxtəlif xalqların (rus, ingilis, fransız, alman və s.) sözləri ilə sona vurmaq müasirlik sayılmaz. Bu "yarı-yarımçıqlıq" istifadə edilən sözlərin aid olduğu dillərə də hörmətsizlik sayılır.

**Bibixanim İSAYEVA.**

(Ardı gələn sayımızda).

# Xəzər dənizinin duzsuzlaşdırılması

Dənizdən suyun təmizlənib istifadə olunması artıq uzun müddətdir tətbiq olunan bir metoddur. Bu, əsasən su ehtiyatları həddindən artıq az olan ölkələrdə - Səudiyyə Ərəbistanında, Omanda, Birləşmiş Ərəb Əmirliklərində, Qətərdə, İsraildə, Avstraliyada, ABŞ-nin bəzi yerlərində, İspaniyada tətbiq olunur. Həddindən artıq istilərin olduğu bu ölkələrdə su qıtlığını aradan qaldırmaq üçün dəniz suyunu duzsuzlaşdıraraq, həm içməli su kimi, həm də kənd təsərrüfatında istifadə edirlər.

Dəniz suyunun duzsuzlaşdırılıb istifadə olunmasının Xəzər dənizinin ekoloji sisteminə elə bir ciddi təsiri olmayacaq. Sadəcə suyu duzsuzlaşdırdıqdan sonra müəyyən duzlar-natrium xlor, maqnezium və digər metal qalıqları yaranacaq ki, bunlar da artıq tullantı sayılacaq. Təbii ki, əgər bu tullantıların yenidən qaytarılıb dənizə və ya ətraf mühitin hər hansı bir torpaq yerlərinə, su mənbələrinə atılması əlavə problemlər yarada bilər. Əgər onların səmərəli istifadəsi mümkün olsa, bu dənizin ekosisteminə və ətraf mühitin sisteminə ciddi təsir etməz.

Gələcəkdə yarana biləcək su qıtlığı probleminin effektiv həlli məqsədilə 2012-ci ildə Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunu içməli su səviyyəsinə qədər təmizləməyə imkan verən, tərs osmos membranları ilə təchiz olunmuş və yüksək texnologiyaya əsaslanan zavod inşa edilmişdir. Zavodun tikilməsi ideyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məxsusdur və Yer kürəsində təmiz suya olan tələbatın getgedə artması fonunda regionda ən az şirin su ehtiyatına malik olan Azərbaycanda alternativ mənbələrin üzə çıxarılması, onlardan istifadənin təşkilində təcrübə əldə etmək məqsədilə pilot layihə kimi həyata keçirilmişdir.

Bundan başqa, 2012-ci ildə Şirvan kollektorunun suyunun duzsuzlaşdırılaraq suvarılmaya yararlı vəziyyətə gətirilməsi üçün sutkada 2500 kubmetr gücündə qurğular inşa edilmiş və 2016-cı ildə onların istehsal gücü 2 dəfə artırılaraq 5000 kubmetrə çatdırılmışdır. Burada həcmi 500 $m^2$ olan xüsusi örtüklə izolyasiya olunmuş metal su çəni qurulmuş, həcmi 2000 $m^2$ olan yeraltı dəmir-beton su anbar inşa edilmişdir. Azməsrəfli adi texnologiyalardan istifadə etməklə Şirvan kollektorunun suyunu da içməli su keyfiyyətinə çatdırmaq mümkündür.

Bununla da hazırda Dəniz suyunun duzsuzlaşdırılması zavodu və Şirvan kollektorunun suyunun duzsuzlaşdırılması qurğularında gündə 7000 kubmetr su istehsal olunur. Faktiki olaraq bu suların hesabına 1 750 hektar ərazidə salınmış bağları suvarmaq olar. Nəzərə alsaq ki, hazırda salınan aqromeşə massivlərinin bir hissəsi Salyan və Qaradağ kimi ərazilərə düşür, burada suvarma ilə bağlı məsələlər öz həllini tapmışdır. Hazırda Salyan rayonunun ərazisində istehsal olunan bu sulardan 50-70 min əhalisi olan bir şəhəri içməli su ilə təmin etmək mümkündür. Bu o deməkdir ki, ehtiyac olarsa, Azərbaycan sınaqdan çıxmış texnologiyalar əsasında Xəzərin sularından və digər alternativ mənbələrdən istifadə edərək öz ehtiyaclarını ödəməyə tam hazırdır. 2013-cü ilin yanvarından istismara verilmiş dəniz suyunun duzsuzlaşdırılması zavodu və Şirvan kollektorunun suyunun duzsuzlaşdırılması qurğularında bu günədək 5 milyon kubmetrdən artıq su istehsal edilmişdir. Hazırda bu sulardan suvarmaya yararlı suyun məhdud olduğu ətraf ərazilərdə salınmış 630 hektar yaşıllıqların, o cümlədən zeytun plantasiyalarının və ildə 1 milyondan artıq əkin materiali yetişdirilən tinglik sahələrinin suvarılmasında istifadə olunur.

Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026 - 2035-ci illər üzrə Dövlət Proqramı"na həsr olunmuş müşavirədə müzakirə olunan mövzulardan biri də Xəzər dənizinin suyunun duzsuzlaşdırılaraq istifadəyə yararlı hala gətirilməsi ilə bağlıdır.

Prezident İlham Əliyevin ölkənin su təhlükəsizliyinin təmin edilməsi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə imzaladığı Sərəncamla "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi" istiqamətində birinci mərhələyə uyğun olaraq işlər davam etdirilir.

Qeyd edilib ki, dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı üzrə pilot layihə üçün Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında 2025-ci il sentyabrın 22-də Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində müqavilə imzalanıb.

Layihənin icrası üçün Sumqayıt şəhər ərazisi müəyyən edilib. Bu 30 hektara yaxın ərazini və sahil zolağını əhatə edir. Duzsuzlaşdırma zavodunun gündəlik istehsal gücü 300 min kub metrdir. Ekspertlərin sözlərinə görə bu da təxminən 100 milyon kub metr su istehsalı deməkdir. Bu da Abşeron yarımadasının indiki su tələbatının 20 faiz artırılmasına şərait yaradacaq. Duzlu su təmizlənərək, içməli suya çevriləcək.

Həmçinin, 2026 - 2028-ci illər Sumqayıt Duzsuzlaşdırma Qurğusundan Ceyranbatan su anbarına qədər magistral kəmərin tikintisi də nəzərdə tutulub.

Verilən məlumatlara görə, Xəzər dənizinin suyunun təmizlənməsi-duzsuzlaşdırılması işləri paralel aparılacaq.

Xəzərin suyu digər dənizlərlə müqayisədə 3 dəfə az duzludur. Bu o deməkdir ki, Xəzərin suyunun duzsuzlaşdırılmasına 3 dəfə daha az xərc tələb olunacaq. Xəzər dənizinin suyu iqtisadi baxımdan daha effektiv şəkildə duzsuzlaşdırılacaq.

**İlahə EYVAZLI,**
**"Qəbələ səsi".**




QƏBƏLƏ SƏSİ qəzetinə

2026-cı ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*


## İTMİŞDİR

"BazarStore" MMC-yə məxsus kassa aparatının **1358416546 nömrəli "Tokeni" itdiyi üçün** etibarsız sayılır.

## ELAN

30.12.2008-ci il tarixdə Qeydiyyat № 2 ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qəbələ rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Dəmiraparan" Sudan İstifadə edənlər Birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma şəklində yenidən təşkili (birləşmə) formasında 05.10.2007-ci il tarixdə 0707-QQ1-01 nömrə ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Göyçay bölgə şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Qoçalan" Sudan İstifadə edənlər Birliyinin bazasına qoşulmuş (birləşmiş) və onun hüquqi varisidir.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ səsi" qəzetinin kollektivi Qəbələ Rayon İcra Hakimiyyəti Başçısının köməkçisi **Azər Şirinova** anası

**RƏFİQƏ XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149
VÖEN: 4402717261
Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1100*